**Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV**
Azərbaycan Kooperasiya Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru.
E-mail: emeherremov79@mail.ru

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA AQRAR SAHƏNİN İNNOVATİV İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* – Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin innovativ inkişaf perspektivlərinin müəyyənləşdirilməsindən ibarətdir. Bu iqtisadi rayonlarda aqrar sahənin innovativ inkişaf potensialı təhlil olunmuş və ümumiləşdirilmişdir. Aqrar sahənin ənənəvi və müasir inkişaf imkanlarından yanaşmaqla, daha çox innovativ inkişafa üstünlük verməyin vacibliyi əsaslandırılmışdır. Müasir prioritetlər və işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi hədəfləri nəzərə alınmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin yüksək texnologiyalar əsaslı innovativ inkişaf etdirilməsi üzrə konseptual yanaşmalar və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

*Tədqiqatın metodu* kimi əsasən bir qrup elmi metodlardan- təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bunlarla yanaşı, son illərdə işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi potensialına dair tədqiqatlar aparılmış, alimlərin elmi əsərlərinə müraciət edilmişdir.

*Tədqiqatın nəticələri* – Böük Qayıdışla əlaqədar I Dövlət Proqramının reallaşdırılması çərçivəsində ərazilərin dirçəldilməsinin sürətləndirilməsi, həmçinin güclü potensiala malik aqrar sahənin inkişafının intensivləşdirilməsi ilə bağlı tədbirlər kompleksinin və fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə edilməsi amili ilə izah olunur.

**Açar sözlər**: Azərbaycan, Qarabağ, Şərqi Zəngəzur, aqrar sahə, aqrar sahənin inkişaf problemləri, aqrar sahənin inkişaf perspektivləri, innovativ inkişaf, innovativ inkişaf mexanizmləri.

**JEL:** R11; R12; R58
**UOT**: 332:338.012
**DOI:** https://doi.org/ 10.54414/ZKNZ5824

## Giriş

Məlumdur ki, əksər iqtisadi rayonlarda aqrar sahə iqtisadiyyatın prioritet sahələrindəndir. Digər tərəfdən, Azərbaycanda aqrar sahənin inkişafı fundamental və strateji xarakter daşıyır. Qlobal səviyyədə ərzaq təhlükəsizliyinin gücləndirilməsi problemlərinin həlli baxımından aqrar sahənin kompleks və sistemli inkişafı vacibdir. Ölkəmizin aqrar sektorunda struktur dəyişiklikləri, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri və reinteqrasiyası prosesləri diqqəti cəlb edir. Azərbaycanda aqrar sahəni müasir qlobal çağırışlara uyğun inkişaf etdirmək məqsədilə, ilk öncə, bu sahədə dünya təcrübəsi öyrənilməli və ən qabaqcıl ölkələrin təcrübəsi tətbiq edilməli, həmin sahənin məhsuldarlıq problemlərinin həlli yolları müəyyənləşdirilməlidir. Müasir dövrdə regional səviyyədə həyata keçirilən və iqtisadi rayonların iqtisadi strukturunun formalaşmasını və bu regionlarda aqrar sahənin inkişafını təmin edən amillərin öyrənilməsi də olduqca vacibdir. Ən əsas problem isə iqtisadi rayonlarda aqrar sahənin inkişaf etdirilməsi və reinteqrasiyasıdır. Müasir tələblərə cavab verən iqtisadi rayonlaşdırma ərazilərin inkişafının idarəetmə sisteminin alətlərindən biridir. Bu vəziyyətdə dövlətin rolu regional problemlərin həllinə və məşğulluğun təmin edilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması, gəlirin ədalətli bölüşdürülməsi kimi ölkənin milli inkişaf məqsədlərinə nail olmağa kömək edəcək belə bir iqtisadi rayonlaşdırma sistemini təşkil etməkdir.

Məlumdur ki, Azərbaycanda Prezidenti İlham Əliyev iqtisadi rayonların yeni bölgüsü ilə bağlı mühüm fərman imzalamaqla milli iqtisadiyyatımızın idarə olunmasının strateji mexanizmlərinin yenilənməsinin əsasını qoymuşdur. Həmin Fərman 2021-ci ilin 7 iyul tarixində imzalanmış

və həmin fərmanda işğaldan azad edilmiş ərazilərin bərpası, onların uzunmüddətli inkişafının təmin edilməsi, bununla bağlı zəruri infrastrukturun yaradılması və əhalinin öz doğma yurdlarına qaytarılması istiqamətində genişmiqyaslı tədbirlər mühüm vəzifələr kimi qarşıya qoyulur [1]. Yeni iqtisadi rayonlaşma bu tədbirlərin daha səmərəli təşkili üçün strateji önəm daşıyacaq və istənilən iqtisadi rayonun resurslarının obyektiv qiymətləndirilməsində və səmərəli istifadəsində, azad edilmiş ərazilərin dirçəldilməsinə konseptual yanaşmaların müəyyənləşdirilməsində müsbət rol oynayacaqdır.

## Yeni şəraitdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin innovativ inkişaf imkanlarının tədqiqi

Azərbaycanın iqtisadi rayonları özünəməxsus iqtisadi və coğrafi mövqeyi, tarixən ərazi-əmək bölgüsü, təbii-iqtisadi şərait, ixtisaslaşma və işə qəbul prosesi ilə seçilən ölkənin böyük ərazisini təşkil edir. Azərbaycanın iqtisadi rayonları müxtəlif inkişaf yolları keçərək bir-birindən perspektiv inkişaf imkanlarına görə fərqlənir. Azərbaycanda iqtisadi rayonlaşdırmanın inzibati-ərazi prinsipi üzrə formalaşmasının əsas istiqamətlərini müəyyənləşdirmək üçün regional xüsusiyyətlərə, təsərrüfat komplekslərinin infrastruktur imkanlarına və təbii sərvətlərə aid bütün məsələləri nəzərə almaq, iqtisadi inkişafın müxtəlif aspektlərinə diqqət yetirmək önəmlidir. Cəmiyyətin inkişafının istənilən mərhələsində formalaşan istənilən iqtisadi rayon digər iqtisadi rayonlardan sosial-iqtisadi, iqtisadi-coğrafi və ictimai-siyasi aspektlərinə görə fərqlənir [2, s.365]. İqtisadi rayonlarda aqrar sektorun inkişafı üçün aşağıdakı elmi tədqiqat sahələrinə ehtiyac var: aqrar sektorunun rəqabət qabiliyyətinin artırılması; aqrar sektorda istehsal amillərinin məhsuldarlığının artırılması yollarının tədqiqi; kəndin rifahının yaxşılaşdırılması və s.

Ölkəmizdə aqrar sahənin strukturunun, idarəetmə mexanizminin və onun kadr təminatının təkmilləşdirilməsi, həmin sahənin inkişafı baxımından vergi güzəştlərinin davamlılığının təmin edilməsi istiqamətində islahatlar aparılır. Torpaqlardan səmərəli istifadəsi, tarixən ixtisaslaşdırılmış, daha səmərəli hesab olunan üzümçülük, pambıqçılıq, baramaçılıq, çayçılıq, tütünçülük və s. kimi kənd təsərrüfatı sahələrinin daha yüksək templərlə inkişaf etdirilməsi, həmin sahələrin subyektlərinə verilən güzəştli kreditlərin həcminin artırılması, aqrar sahənin ərazi təşkilinin aqroparklar, kooperativlər və s. yeni mütərəqqi formalarının tətbiqi istiqamətində tədbirlər reallaşdırılır. Aparılan bütün bu islahatların, görülən tədbirlərin müsbət nəticələrini görmək mümkündür. Bu nəticələr, ilk öncə, kənd təsərrüfatı məhsullarının illik artımında özünü göstərdi ki, bunu da Azərbaycanın aqrar sahə məhsullarının ixrac potensialının artırılmasında da müşahidə etmək olar [3, s.88].

Aqrar sahənin inkişafı prosesində əsas element investisiyalardır. Müasir dünyada investisiyalar istənilən sənayenin iqtisadiyyatının inkişafının tərkib hissəsidir. Aqrar sahəyə investisiya qoyuluşunun xüsusiyyətləri əhəmiyyətli kapital sıxlığı, uzun geri ödəmə müddəti, habelə gəlir çatışmazlığı riski və ya qoyulmuş kapitalın itirilməsi təhlükəsi ilə özünü göstərir. Bu səbəblər investorları riskli sahəyə investisiya qoymaqdan çəkinməsinə səbəb olur. Həmçinin, aqrar sahəyə investisiya qoyuluşunun olmaması problemləri əksər müəssisələrin qeyri-sabit maliyyə vəziyyətindədir. Bu, əlavə investisiyaların cəlb edilməsinə yönəlmiş əlverişli şəraitin yaradılmasını tələb edir. Son illər Azərbaycanda ÜDM-in artması iqtisadi rayonların inkişafına yönəldilmiş maliyyə resurslarının artmasına ciddi təsir göstərib. Kənd təsərrüfatı üzrə ixtisaslaşan iqtisadi rayonlarda aqrar sahənin inkişafına ciddi təsir göstərə bilən amillərdən biri məhz investisiyaların xüsusi çəkisinin artmasıdır. Təbii ki, iqtisadiyyatın başqa sahələri ilə müqayisədə iqtisadi rayonların kənd təsərrüfatında istehsal riskinin yüksək olması amili nəzərə alınmalıdır [4, s.79].

Aqrar sənaye müəssisələrinin investisiya cəlbediciliyinin artırılması məqsədilə zəruri investisiya mexanizmlərinin formalaşdırılması və reallaşdırılması mühüm şərtlərdəndir. Ölkəmizin aqrar sənaye müəssisələrinin mühüm hissəsi regionlarında yerləşdiyindən və fəaliyyət göstərdiyindən, həmin müəssisələrin investisiya cəlbediciliyini formalaşdırarkən, onların regional xüsusiyyətləri, xammal bazası, maddi resursları, əmək ehtiyatları və məhsuldar qüvvələrin potensialı, investisiyaların hərəkəti və istifadəsi ilə bağlı nəzarət mexanizmlərinin mövcudluğu nəzərə alınmalıdır. Dövlətin belə məsələlərlə bağlı kon-

septual yanaşmaları və fəaliyyət mexanizmləri olmalıdır. Dövlət investisiyaların səmərəli idarə edilməsi strategiyasını hazırlamalı, müvafiq mərkəzi və regional idarəetmə strukturlarını formalaşdırmalı, ölkənin təsərrüfat subyektlərinin, o cümlədən aqrar sahə müəssisələrinin xarici ölkələrdə real investisiya mənbələrinə çıxışını təmin etmək məqsədilə tədbirlər görməlidir [5, s. 95].

Məlumdur ki, aqrar sferanın əsas sahələri heyvandarlıq və əkinçilikdir. Azərbaycan heyvandarlıq və bitkiçilik məhsullarının emalı üçün zəruri potensiala da malikdir. Heyvandarlığın inkişaf etdirilməsinin əhəmiyyəti əhalinin qidalanmasında istifadə olunan ən zəruri və tələb olunan məhsulların istehsalı ilə müəyyənləşdirilir. İqtisadi rayonlarda heyvandarlığın möhkəm yem bazasının yaradılması bu sahənin səmərəli inkişafına gətirib çıxarır. Məsələn, ətlik mal-qara əhəmiyyətli otlaq sahələri olan ərazilərdə yerləşdirilməlidir. Heyvandarlıın inkişafı həm də təbii şəraitdən, heyvanların sürü strukturundan, onların seçimindən, həmçinin kökəlmə və damazlıq texnologiyasından asılıdır. Heyvandarlığın inkişafı hesabına əhalini zəruri olan ərzaq məhsulları, o cümlədən yumurta, ət, pendir, süd və s. istehsal olunur, müxtəlif sənaye sahələri xammalla təmin olunur [6, s.103]. Müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və onların emalı prosesində yüksək keyfiyyətli texnologiya və innovasiyalardan, o cümlədən "ağıllı" texnologiyalardan və müasir idarəetmə sistemlərindən istifadə olunmaqla Aqrar sahənin inkişafına nail olmaq olar. Aqrar sahənin müasir texnologiyalara və idarəetmə funksiyalarına əsaslanan inkişafı ölkəmizin iqtisadi rayonlarının potensialının reallaşdırılmasında, regional iqtisadiyyatın strukturunun şaxələndirilməsində, rəqabətqabiliyyətli məhsulların istehsalında mühüm rol oynayacaqdır. Bu kimi proseslər ölkəmizin iqtisadi rayonlarının inkişafına, əhalinin ən zəruri ərzaq məhsullarına tələbatının ödənilməsinə və ölkənin ərzaq təhlükəsizliyinə əlavə stimul verəcəkdir [7, s.59].

Təşkilati-iqtisadi tədbirlərin tətbiqi ETT-nin və qabaqcıl texnologiyaların tətbiqi ilə birlikdə ölkəmizin iqtisadi rayonlarında aqrar sahənin inkişafına zəmin yaradan amillərdəndir. Hazırda beynəlxalq səviyyədə iqtisadiyyatın inkişafı üçün innovasiyalardan istifadəyə əsaslanan yeni paradiqma formalaşır. Azərbaycanın iqtisadi rayonlarında aqrar sahəsinin reinteqrasiyası zamanı bu prosesləri nəzərdən qaçırıla bilməz və təkcə aqrar sahədə deyil, milli iqtisadiyyatın bütün sahələrində innovasiya proseslərinin intensivləşməsini təmin etməlidir. Aqrar sahə iqtisadiyyatın strateji əhəmiyyətli sahəsi olmaqla müasir meyillərə cavab verən keyfiyyətcə yeni texniki-texnoloji baza üzərində qurulmalıdır [8, s.77]. Qeyd edək ki, reinteqrasiya müxtəlif səviyyələrdə aqrar-sənaye sistemlərinin inkişafında obyektiv qanunauyğunluqdur.

Hesab edirik ki, aqrar sahənin innovativ inkişafının stimullaşdırılması strategiyası çərçivəsində növbəti istiqamətlərə ayırmaq olar: 1. Təsərrüfat subyektləri ilə kənd təsərrüfatı profilli ali təhsil müəssisələri, habelə kiçik və orta innovativ müəssisələr arasında sıx əməkdaşlığa əsaslanan konsaltinq sisteminin inkişafı. Belə ki, bir tərəfdən kənd təsərrüfatı müəssisələri istehsal prosesinin bütün elementlərinin təkmilləşdirilməsi ilə bağlı qabaqcıl yerli elmi nailiyyətlərə operativ çıxış əldə edir, digər tərəfdən isə elmi-tədqiqat və inkişaf təşkilatları öz elmi tədqiqatlarını təcrübədə sınaqdan keçirmək imkanı əldə edir. 2. Müəssisələrin innovasiyalara tələbatının stimullaşdırılması, habelə onların istehsal prosesinə tətbiqi. 3. Təsərrüfat subyektinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi - elmi əsaslara əsaslanan və əsas məqsəd kimi qarşıya qoyulan səmərəli, yüksək effektli idarəetmə qərarlarının qəbulu sisteminin işlənib hazırlanması. 4. Fəaliyyəti seleksiya və genetikanın ən son elmi nailiyyətlərinə əsaslanan yerli toxumçuluq və damazlıq təsərrüfatlarının inkişafının stimullaşdırılması baxımından innovasiya fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi.

Müasir dövlətlər öz aqrar siyasətini qurarkən dövlət tənzimləməsinin müxtəlif forma və üsullarından istifadə edirlər. Aqrar sahənin innovativ inkişafında dövlətin rolu innovasiya siyasətinin istiqamətləri ilə müəyyənləşdirilir ki, həmin istiqamətlərin ən əsasların aiddir: innovasiya yönümlü inkişafın hüquqi baxımdan tənzimlənməsi və onun iştirakçılarının maraqlarının qorunması; innovasiyaların yaradılması və inkişafına dəstəyin göstərilməsi; prioritet inkişafın müəyyənləşdirilməsi və reallaşdırılması; əməkdaşlığın səmərəli formalarının inkişaf etdirilməsi,

təşkilati-iqtisadi strukturların formalaşdırılması; aqrar sahə müəssisələri üçün innovasiyalar sahəsində kadr hazırlığı; aqrar sahə müəssisələrinin maddi-texniki bazasının prioritet istiqamətlərdə inkişaf etdirilməsi; innovasiyalar sahəsində əməkdaşlığın genişləndirilməsi və inkişafı [9, s.80]. İnnovasiya siyasəti aqrar sahənin modernləşdirilməsində əsas vasitədir. Modernləşmə təkcə məhsuldarlığın artırılmasını deyil, həm də kənd təsərrüfatı sektorunun mənfi iqlim dəyişikliyinə davamlılığının artırılmasını təmin edir. Aqrar sahənin modernləşdirilməsi ölkənin tədiyə balansına da təsir edir və ölkənin idxal olunan ərzaq məhsullarından asılılığını azaldır və idxalın əvəzlənməsi prosesini sürətləndirir.

İdxalın əvəzlənməsi ölkəmizin ən mühüm strateji vəzifəsidir ki, onun həlli idxalı əvəzləmə siyasətinin yenidən qiymətləndirilməsini və idxaldan asılılığın əsas səbəblərini aradan qaldıra bilən və yerli məhsulların rəqabətqabiliyyətliliyinin praktiki məsələlərini həll etməyə imkan verən yeni konsepsiyanın hazırlanmasını tələb edir. Aqrar sektorda idxalı əvəzləmə problemlərinin həllində mühüm rol aqrar universitetlərə həvalə edilməli, onlar öz fəaliyyətlərini kadr potensialının inkişafına, təhsil texnologiyalarının keyfiyyət komponentinin aktivləşdirilməsinə və gücləndirilməsinə, elmi tədqiqatların səmərəliliyinə və aktuallığına yönəltməlidirlər. İqtisadiyyatın aqrar sahəsində idxalı əvəzləmə ilə bağlı mövcud tendensiyalar ölkənin ərzaq təhlükəsizliyini təmin etməli, onun sabitliyini artırmalı, iqtisadiyyatın hərəkətverici qüvvəsi olan kənd təsərrüfatının dinamik inkişafına münbit şərait yaratmalı, əhalinin rifah halını yüksəltməlidir.

Aqrar sahədə modernləşmənin sektoral prioritetlərini müəyyənləşdirmək məqsədilə müxtəlif elmi yanaşmalardan istifadə hesabına kənd təsərrüfatı və qida istehsalında rəqabət üstünlüklərinə malik ixracyönümlü sahələrin seçilməsi zəruridir. Əsas diqqəti aşağıdakı prinsiplərə də yönəltmək lazımdır: regional, sektorlararası, geoiqtisadi və ekoloji tarazlıq, məşğulluğun artırılması, iqtisadi və ərzaq təhlükəsizliyi, iqtisadi səmərəlilik, innovativlik və s.

**Müasir kontekstdə Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin innovativ inkişaf istiqamətləri**

Qeyd edək ki, hazırkı dövrdə aqrar modernləşmənin əsas xüsusiyyətlərindən biri onun klaster xarakteridir. Tədqiqatlar göstərir ki, bir-biri ilə əlaqəli iqtisadi fəaliyyətlərin coğrafi yaxınlığı məhsuldarlığı və innovativ inkişafı təmin edir. Klasterlər regional inkişafın əsas hərəkətverici qüvvəsi olan son istifadəçilər, təchizatçılar, xidmət təminatçıları, tədqiqat laboratoriyaları, təhsil müəssisələri və iqtisadiyyatın müəyyən sahəsində fəaliyyət göstərən digər qurumlardır. İnkişaf etmiş ölkələrdə klasterlər əsasən innovasiyalara və biznes mühitinin yaxşılaşdırılmasına diqqət yetirdiyi halda, inkişaf etməkdə olan və keçid iqtisadiyyatı olan ölkələrdə klasterlər dəyər yaratmağa və ixracın gücləndirilməsinə diqqət yetirirlər. Məsələn, inkişaf etməkdə olan ölkələrdə donorlar tərəfindən idarə olunan klasterlər ixrac yönümlüdür və qida zəncirini inkişaf etdirmək məqsədi daşıyır. Əlavə dəyərin artırılması və biznes mühitinin yaxşılaşdırılması da onların məqsədlərinə daxildir. Bu baxımdan dövlətin və ya biznesin təşəbbüsü ilə yaradılan klasterlərin məqsədləri bir-birindən fərqlənir. Modernləşdirmə yolu ilə ixrac olunan kənd təsərrüfatı və ərzaq məhsullarının rəqabət qabiliyyətini artırmaq, minimum xərclə daha yüksək keyfiyyətə nail olmaq mümkündür. Bunun üçün ən son texnologiyaya və yüksək ixtisaslı işçi qüvvəsinə əsaslanan ixrac yönümlü kənd təsərrüfatı istehsalını təmin etmək lazımdır. Bu halda ixrac olunan məhsullar dünya bazarlarında daha rəqabətqabiliyyətli olacaq.

Hesab edirik ki, aqrar sahənin modernləşdirilməsi sosial-iqtisadi əsaslarla aparılmalıdır. Müasir şəraitdə aqrar sahənin modernləşdirilməsinin əsas məsələlərindən biri onun strukturunun daha da təkmilləşdirilməsidir. İqtisadi rayonların iqtisadi inkişafında aqrar sektorun rolunun artırılması yollarından biri kənd təsərrüfatının modernləşdirilməsi yolu ilə rəqabət qabiliyyətinin artırılması, minimal xərclə daha yüksək keyfiyyətə nail olunmasıdır. Bunun üçün aqrar sahədə ən müasir texnologiyalara və yüksək ixtisaslı işçi qüvvəsinə əsaslanan məhsulların istehsalını təmin etmək lazımdır. Yalnız bu halda ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək və ixrac potensialını artırmaq mümkün olacaqdır.

İqtisadi rayonların inkişafının modelləşdirilməsi və mövcud problemlərin həlli pro-

seslərində kənd təsərrüfatı torpaqlarının potensialından səmərəli istifadə kompleks və sistemli yanaşma tələb edir. Bunu nəzərə alaraq hesab edirik ki, aqrar sahənin müasir texnologiyalara və idarəetmə funksiyalarına əsaslanan inkişafı ölkəmizin iqtisadi rayonlarının potensialının reallaşdırılmasında, regional iqtisadiyyatın strukturunun şaxələndirilməsində və rəqabətqabiliyyətli məhsul istehsalında mühüm rol oynayacaq və bu prosesə əlavə stimul verəcək, həmçinin ölkənin ərzaq probleminin həllinə kömək edəcəkdir. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin intensiv və yüksək texnologiyalı inkişafı imkanları bu rayonların dirçəlişini sürətləndirə bilər.

İqtisadi rayonların iqtisadi biliklər əsasında inkişafı kontekstində aqrar sahədə aşağıdakı infrastrukturların yaradılması və fəaliyyətlərinin təkmilləşdirilməsi zərurəti yaranır: kənd təsərrüfatı innovasiyalarının transferi mərkəzləri şəbəkəsinin inkişafı və qlobal inteqrasiyası; aqrar sektorda vençur fondlarının yaradılması və inkişafı; ölkənin aqrar rayonlarında innovativ məhsulların istehsalı üzrə klasterlərin yaradılması və inkişafı; kənd təsərrüfatı innovasiyalarına dövlət dəstəyi mexanizminin formalaşdırılması və vahid innovasiya sisteminin yaradılması. Kənd yerlərində mövcud infrastruktur sahələrinin inkişafı və yenilərinin yaradılması aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin işinin səmərəliliyini artıran amillərdən biridir. İqtisadi rayonlarda aqrar sahibkarlığının inkişafı istiqamətində baş verəcək bütün dəyişikliklər istehsal, emal, xidmət və marketinq sahələri arasında sıx əlaqəni təmin etməlidir. Onlar olmadıqda iqtisadi rayonların aqrar sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli məhsul istehsal etməsi, həmçinin daxili bazarda sabit satış mövqeyini qoruyub saxlaması və ixracyönümlü aqrar sahə məhsullarının istehsalını genişləndirməsi mümkün deyil [4, s.82].

Ölkə iqtisadiyyatının inkişafında aqrar sektorun rolunu artırmaq məqsədilə minimal xərclə daha yüksək keyfiyyətə nail olmaq üçün modernləşdirmə yolu ilə kənd təsərrüfatı və ərzaq məhsullarının rəqabət qabiliyyətini artırmaq lazımdır. Bunun üçün aqrar sahədə ən müasir texnologiyalara və yüksək ixtisaslı işçi qüvvəsinə əsaslanan məhsulların istehsalını təmin etmək lazımdır. Kiçik təsərrüfatlarda kənd təsərrüfatı istehsalının genişləndirilməsinə əsas yanaşma onların meyvə-tərəvəzin ixracına yönəldilməsidir. Məsələn, Azərbaycanın meyvə-tərəvəzinə xarici bazarlarda, xüsusən də MDB ölkələrində tələbat ildən-ilə artır və nəticədə bu növ məhsulların ixracı artır.

Fikrimizcə, ölkə iqtisadiyyatının real sektorunda əsas həlqə milli istehsalın strukturunun formalaşmasında mühüm önəm kəsb edən, əməyin və kapitalın xüsusi tətbiqi sferası şəklində özünü biruzə verən aqrar sahədir. Həmçinin Azərbaycanın aqrar sahəsi özünəməxsus xüsusiyyətləri ilə digər sahələrdən fərqlənir ki, bunlara coğrafi yerləşmə və iqlim şəraiti, kənd təsərrüfatı istehsalı amilləri, ölkənin inkişaf səviyyəsi və resurs potensialı daxildir. İqtisadi rayonlarda aqrar sektorun davamlı inkişafının və ərzaq bolluğunun yaradılmasının ən mühüm yollarından biri bu sektorda sistemli transformasiyanın həyata keçirilməsi, bu sahədə özəl sektorun, o cümlədən dövlət-özəl tərəfdaşlıq və bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin formalaşdırılmasıdır. Bütün bunlar iqtisadi rayonlarda aqrar sahənin inkişafına və reinteqrasiyasına təkan verəcəkdir.

Hazırki şəraitdə müxtəlif iqtisadi rayonlarda, xüsusilə yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyətinin, kənd yerlərinin inkişafı və sabitləşdirmə məsələləri ilə aqrar sahənin inkişafı gücləndirilə bilər. Azərbaycanın iqtisadi rayonlarında, o cümlədən, Qarabağ və Şərqi Zəngəzurda aqrar sahəni inkişaf etdirmək və reinteqrasiya proseslərini səmərəli şəkildə reallaşdırmaq üçün lazımi tədbirlər görür. Məlumdur ki, Qarabağ və Şərqi Zəngəzur bölgələri yarandığı andan özünəməxsus xüsusiyyətləri, təbii sərvətləri və zəngin tarixi-mədəni irsi, məşğulluq formaları ilə yadda qalıb. Həmin iqtisadi rayonlar güclü iqtisadi potensiala malikdir və bu potensialları əsas götürməklə iqtisadi rayonlaşdırılması prinsiplərinin müasir reallıqlara uyğunlaşdırılması vacibdir. Odur ki, dövlət başçısının iqtisadi rayonların yeni bölgüsü ilə bağlı imzaladığı fərmanı bu məsələləri həll etməklə, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini yüksəldəcək, Qarabağ və Şərqi Zəngəzurun ərazilərin milli iqtisadiyyatımıza reinteqrasiyası prosesini sürətləndirəcək, proqnozlaşdırılan işlərin planlı şəkildə təşkilinə şərait yaradacaqdır [10, s.67].

Aqrar sahənin inkişafı baxımından Qarabağ və Şərqi Zəngəzurun mövcud potensialı yaxın gələcəkdə daha yaxşı nəticələr verəcəkdir. İqtisadi rayonların yenidən qurulması, onların sosial-iqtisadi və kompleks inkişafının təmin edilməsi yaxın gələcəkdə ölkənin digər iqtisadi rayonlarında da idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə və əlavə tədbirlərin görülməsinə ciddi əsaslar yaradacaqdır. Bu prosesləri dərinləşdirmək məqsədilə Azərbaycanın iqtisadi rayonlarında mühüm ərzaq məhsullarının məhsuldar sortlarının yetişdirilməsi, seleksiya işlərinin davam etdirilməsi, həmin sahədə qabaqcıl dünya təcrübəsinin tədqiqi, öyrənilməsi və tətbiqi zəruridir. İqtisadi rayonlarda təbii sərvətlərdən və torpaq fondlarından səmərəli istifadə etməklə aqrar sahənin fəaliyyətini müasirliyin tələblərinə uyğunlaşdırmaq üçün ərazilərin resurs potensialını və xüsusilə aqrar sahənin inkişafı üçün mövcud imkan və ehtiyatlar diqqətlə öyrənilməli, məqsədli dövlət proqramları hazırlanmalı və kompleks tədbirlər görülməli, ölkəmizin iqtisadi rayonlarında mühüm ərzaq məhsulu olan buğdanın istehsal sahələrinin genişləndirilməsi və məhsuldarlığının artırılması problemlərinə kompleks və ardıcıl yanaşma təmin edilməli, müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafında qabaqcıl beynəlxalq təcrübə qiymətləndirilməli və yüksək texnologiyaların tətbiqi prioritet olmalı, yaxın gələcəkdə yüksək texnologiyalara əsaslanan emal üçün kənd təsərrüfatı holdinqləri yaradılmalı və ölkəmizdə çoxfunksiyalı şəbəkə emal müəssisələri kompleksi istifadəyə verilməlidir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun köklü şəkildə bərpası və orada müasir infrastrukturların yaradılması həmin iqtisadi rayonların inkişafının əsas strateji istiqamətlərindəndir. Əgər bərpa prosesi olmasa, bu ərazilərin hərtərəfli inkişafını təmin etmək qeyri-mümkündür. Bərpa və reinteqrasiya proseslərinin reallaşdırılması Azərbaycanın ümumi iqtisadi inkişafına təkan verəcək, yeni fəaliyyət sahələrinin və iş yerlərinin yaradılmasına şərait yaradacaqdır. Azad edilmiş ərazilərdə texnoloji yenilikləri tətbiq etmək daha asandır, çünki infrastruktur tamamilə dağıdılıb. Odur ki, Qarabağın yenidən qurulması prosesində texnoloji yeniliklərdən istifadə edilməsi, müasir standartlara uyğun infrastrukturun yaradılması əsas məqsədlərdən biridir. Gələcəkdə bu ərazilərin bərpası və reinteqrasiyası nəticəsində əldə olunan təcrübədən digər rayonlarda da istifadə oluna bilər.

**Nəticə**

Bu qənaətdəyik ki, Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin innovativ inkişafının təmin edilməsi üçün bir qrup amillər, perspektiv inkişaf istiqamətləri ciddi şəkildə dəyərləndirilməli və nəzərə alınmalıdır:

– bərpa və reinteqrasiya proseslərinin yüksək keyfiyyətli və sərfəli şəkildə reallaşdırılması və müasir dövrün tələblərinə uyğun inkişaf modelinin formalaşdırılması, həmçinin iqtisadi rayonların inkişaf etmiş ərazilərə çevrilməsi tədbirlərinin intensivləşdirilməsinə ehtiyac vardır;

– bərpa və reinteqrasiya proseslərinə qabaqcıl innovasiya yönümlü şirkətlərinin cəlb edilməsi, azad edilmiş ərazilərin yaşıl enerji zonalarına çevrilməsi, regionda iqtisadiyyat quruculuğu proseslərində müxtəlif fəaliyyət növlərinin rentabelliyinin təmin edilməsi, xüsusilə, aqrar sektorda istehsal proseslərinin intensivləşdirilməsinə zərurət qalmaqdadır;

– istehsal sistemlərinin iqtisadi şəraitin dəyişməsinə uyğunlaşdırılması, mövcud sistemdə və aqrar sahədə səmərəsiz resursların təsərrüfat fəaliyyəti prosesindən çıxarılması, həmçinin effekti fəaliyyətin genişləndirilməsi, yeni məhsul və xidmət növlərinin yaradılması, kənd təsərrüfatı torpaqlarının optimallaşdırılması, sahə, sahələrarası və regional dəyişikliklərin ciddi şəkildə dəyərləndirilməsi vacibdir;

– tədqiq olunan iqtisadi rayonların inkişafında aqrar sektor iqtisadiyyatın əsas sahələrindən birinə çevrilməli və bu istiqamətdə prioritetlərin optimal müəyyənləşdirilməsi konseptual şəkildə həll edilməlidir, eyni zamanda bu sahədə daha yaxşı nəticələrin əldə olunması məqsədilə, ilk öncə, ölkəmizin iqtisadi rayonlarının maksimum resurs potensialı, kənd təsərrüfatı rayonu və onlara əsaslanan maddi-texniki baza araşdırılmalı və obyektiv qiymətləndirilməli, istehsal üçün baza, infrastruktur yaradılmalıdır və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7

iyul 2021-ci il. https://president.az/az/articles/view/52389/.

2. Həsənov R.V., Qasımova F.E. Azərbaycanin iqtisadi-coğrafi rayonları: vəziyyəti və inkişaf perspektivləri. "Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər" mövzusunda Respublika elmi konfransın materialları. Sumqayıt. 22-23 aprel 2021, №2, s.364-367.

3. Nuriyev Ə.X. Azərbaycanın kənd təsərrüfatı yeni inkişaf mərhələsində. MEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (mart-aprel), s.87-92.

4. Novruzova A.Q. Müasir iqtisadi şəraitdə kənd təsərrüfatı sahəsinin inkişafının əsas perspektivləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (iyul-avqust), s.78-84.

5. Ziyadov F.H. Aqrar-emal müəssisələrinin investisiya mexanizmlərinin tənzimlənməsinin nəzəri əsasları və metodoloji xüsusiyyətləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2020 (iyul-avqust), s.93-101.

6. Xəlilov İ., Cəfərova F. Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəzur iqtisadi

11. .

rayonlarında heyvandarlığın davamlı və innovasiyalı inkişafı perspektivləri. "Qarabağ və Şərqi Zəngəzurun İqtisadi Potensialının Sektoral Qiymətləndirilməsi" mövzusunda IV İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların Beynəlxalq elmi konfransı, İSCEMR, 2022, s.86-108.

7. Məhərrəmov E.M. İqtisadi rayonlarda aqrar sahənin inkişafının metodoloji aspektləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2022 (may-iyun). s. 57-64.

8. Babayeva V.M. Aqrar sahənin innovasiyalı inkişafının prioritet istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), s.77-81.

9. Hacıyeva Z.E., Osmanov İ.O. Aqrar sənaye müəssisələrinin innovativ inkişafında dövlətin rolu / Z. E. Hacıyeva, İ. O. Osmanov // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2020. – cild. 16, №. 4. – s. 79-82.

10. Əliyev Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. "Geostrategiya" jurnalı, sentyabr, 2021, №4(64), s.67-72

**Эльдениз Мазахир оглы МАГЕРРАМОВ**
*Доктор философии по экономике, доцент Азербайджанского Университета Кооперации, AZ1124, Н.Нариманов,93, Баку, Азербайджанская Республика*
*E-mail: emeherremov79@mail.ru*

# ИННОВАЦИОННЫЕ ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ АГРОПРОМЫШЛЕННОГО КОМПЛЕКСА КАРАБАХА И ВОСТОЧНОГО ЗАНГЕЗУРА

**Резюме**

***Цель исследования*** – определение инновационных перспектив развития аграрного сектора Карабаха и Восточного Зангезура. Проанализирован и обобщен инновационный потенциал развития аграрного сектора этих экономических регионов. Исходя из традиционных и современных возможностей развития аграрной сферы обоснована важность постановки приоритета инновационному развитию. С учетом современных приоритетов и целей возрождения территорий, освобожденных от оккупации, определены концептуальные подходы и направления действий по высокотехнологичному инновационному развитию аграрного сектора Карабахского и Восточно-Зангезурского экономических районов.

***Методы исследования*** - в качестве методов исследования использовалась группа научных методов - анализа, синтеза, сравнения и обобщения. Помимо этого, в последние годы проводились исследования потенциала развития сельского хозяйства на территориях, освобожденных от оккупации, и были проанализированы научные труды ученых.

***Результаты исследования*** объясняются фактором ускорения оживления территорий в рамках реализации I Государственной программы «Великого возвращения», а также использованием комплекса мер и механизмов действий, связанных с интенсификация развития аграрной сферы данной территории.

**Ключевые слова:** Азербайджан, Карабах, Восточный Зангезур, аграрная сфера, проблемы развития аграрной отрасли, перспективы развития аграрной отрасли, инновационное развитие, механизмы инновационного развития.

**Eldaniz Mazahir MAHARRAMOV**
*PhD in economics, Associate professor of Azerbaijan University of Cooperation,*
*AZ1124, N.Nərimanov, 93, Baku, Azerbaijan Republic*
*E-mail: emeherremov79@mail.ru*

## INNOVATIVE PERSPECTIVES OF DEVELOPMENT OF AGRO-INDUSTRIAL COMPLEX OF KARABAKH AND EAST ZANGEZUR

**Summary**

*The purpose of the research* - is to determine the innovative perspectives of development of the agrarian sector of Karabakh and East Zangezur. The innovative potential of the development of the agrarian sector of these economic regions is analysed. Based on the traditional and modern possibilities of development of the agrarian sphere, the importance of prioritising innovative development has been substantiated. Taking into account modern priorities and goals of revival of the territories liberated from occupation, conceptual approaches and directions of actions on high-tech innovative development of agrarian sector of Karabakh and East-Zangezur economic regions are defined.

*Research methods* - analysis, synthesis, comparison and generalisation were used as research methods. In addition, in recent years, studies on the potential of agricultural development in the territories liberated from occupation have been conducted and scientific works of scientists have been analysed.

*The results of the research* are explained by the factor of acceleration of revival of the territories within the framework of implementation of the I State Programme of ‘Great Return’, as well as the use of a set of measures and mechanisms of action related to the intensification of development of the agrarian sphere of the territory.

***Key words:*** Azerbaijan, Karabakh, East Zangezur, agrarian sphere, problems of development of agrarian sphere, prospects of development of agrarian branch, innovative development, mechanisms of innovative development.